HAQQIN SÖZÜ – SÖZÜN HAQQI 30 APREL 2019-CU İL/ №008 (88)

# Yeni YOL

yeni_yol@mail.ru / İCTİMAİ QƏZET / იენი იოლი საზოგადოებრივი გაზეთი / qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur

2



OKRUAŞVİLİYƏ YADDAŞ KONSPEKTİ!

3



GÖRDÜYÜM HƏQİQƏTLƏR

6



TÜRMƏ EŞQİ, CİNAYƏTKAR OLMAQ ARZUSU

6



QANUNU ÖYRƏN - YALANLARDAN QORUN

## SALOME ZURABİŞVİLİ PASXA BAYRAMI İLƏ ƏLAQƏDAR 42 MƏHBUSU ƏFV EDİB



Prezident Salome Zurabişvili Pasxa bayramı ilə əlaqədar əfv fərmanı imzalayıb. Fərmana əsasən, 42 məhbus əfv edilib. Onların sırasında azərbaycanlı da var.

Prezident Administrasiyasının rəhbəri Laşa Jvania bildirib ki, fərmanla 2-si qadın olmaqla 19 nəfər məhbus azadlığa buraxılıb. Eyni zamanda, 23 nəfər şərti cəzadan azad olunub.

Şərti cəzadan azad olunanlardan da ikisi qadındır.

## PAATA İMNADZE: GÜRCÜSTAN QIZILCA EPİDEMİYASININ SƏRHƏDİNDƏDİR



Gürcüstan qızılca epidemiyasının sərhədindədir. Bu haqda Xəstəliklərə və İctimai Sağlamlığa Nəzarət üzrə Milli Mərkəzinin elmi rəhbəri Paata İmnadze bildirib.

O deyib ki, immunizasiya elə bir şeydir ki, diqqət etməyəndə geriyə unudulmuş xəstəliklərlə qayıdır.

"Gürcüstan bu il artıq 12-ci dəfədir Avropa İmmunizasiya Həftəsində iştirak edir. Bu həftəlik bütün Avropa regionları və bizim ölkə üçün ənənəyə çevrilib. Həftəlikdən istifadə edərək cəmiyyətə immunizasiyanın nə qədər əhəmiyyətli olmasını bir daha xatırladırıq. Xatırladım ki, immunizasiya elə bir şeydir ki, bir az diqqət etməyəndə geri unudulmuş xəstəliklərlə qayıdır. Bu bizə aiddir, çünki ölkədə qızılca artıb, epidemiyanın sərhədindəyik, ancaq dünyanın bir çox ölkəsində, həmçinin Avropa ölkələrində və ABŞ-da da qızılca xəstəliyinin unudulmasına baxmayaraq bu baş verir. Qızılcanı peyvənddən başqa heç nə dayandıra bilməz.

Bu gün 1 yaşa qədər uşaqlarda qızılcanın çoxalması qeydə alınıb, çünki uşaq dünyaya gətirən analar peyvəndli deyillər və ona görə də bu uşaqlar peyvənd yaşı çatana qədər xəstələnirlər", - Paata İmnadze bildirib.

## TÜRKİYƏNİN GÜRCÜSTANDAKI SƏFİRLİYİ QONDARMA "ERMƏNİ SOYQIRIMI" AKSİYASININ İŞTİRAKÇILARINI SÜLHƏ ÇAĞIRIB

Tbilisidə Türkiyənin Gürcüstandakı səfirliyinin binası yaxınlığında qondarma "erməni soyqırımı"nın 104-cü ildönümü ilə bağlı aksiya keçirilib.

Aksiyada Gürcüstanın erməni əsilli vətəndaşları və ermənilərin təmsil olunduğu təşkilatların nümayəndələri iştirak ediblər.

İştirakçılar Türkiyə və Gürcüstandan uydurma soyqırımın tanınmasını tələb ediblər.

Aksiyaya paralel olaraq yaxın ərazidə Türkiyə səfirliyinin təşkilatçılığı ilə Milli Suverenlik və Uşaq Bayramı Gününə həsr olunmuş tədbir keçirilib. Tədbir çərçivəsində uşaqların Gürcüstan-Türkiyə dostluğu, Mustafa Kamal Atatürk və sülh mövzusuna həsr etdikləri rəsmləri sərgilənib. Bununla yanaşı gürcü, türk, Azərbaycan, rus və erməni uşaq mahnıları da yüksək səslə səsləndirilib. Tədbir iştirakçıları olan uşaqlara konfetlər, üzərində Türkiyə və Gürcüstan bayraqlarının əks



olunduğu ağ şarlar paylanıb.

Türkiyənin Gürcüstandakı səfiri Fatma Ceren Yazqan bildirib ki, tədbir bir neçə ay öncə planlaşdırılıb: "Bu tədbirlə biz hamıya mesaj ötürürük ki, uşaqlar bizim gələcəyimizdir və onlara sülh lazımdır".

Türkiyə səfirliyinin belə tədbir keçirməsi uydurma "erməni soyqırımı"na həsr olunmuş aksiya iştirakçılarının hiddətinə səbəb olub. Aksiya keçirilən əraziyə çox sayda polis əməkdaşı cəlb olunub, iki aksiya iştirakçıları arasında sədd çəkilib.

## İQTİSADİYYAT NAZİRİ GİORGİ KOBULİA İSTEFA VERİB

Gürcüstanın iqtisadiyyat və davamlı inkişaf naziri Giorgi Kobulia vəzifəsindən azad olunub. Bununla bağlı Gürcüstanın baş naziri Mamuka Baxtadze müvafiq qərar imzalayıb.

G.Kobulianın səlahiyyətləri onun müavini Natia Turnavaya həvalə olunub. N.Turnava bu vaxta qədər iqtisadiyyat və davamlı inkişaf nazirinin müavini vəzifəsində çalışıb.

Qeyd edək ki, G.Kobulia 2018-



ci ilin iyulun 12-də Gürcüstanın iqtisadiyyat və davamlı inkişaf naziri vəzifəsinə təyin olunub.



# OKRUAŞVİLİYƏ YADDAŞ KONSPEKTİ!

Azər MUSAOĞLU
azermusaoghlu@gmail.com

*"İvanişviliyə hazırlıq konspekti!*

*Qriqoliç, azərbaycanlı sərhədçilər dörd gündür ki, bizimkiləri Qareciyə buraxmırlar.*

*Yenə nə etməli olduğunu mən öyrətməliyəm.*

*2005-ci ildə Azərbaycan bizimlə hansısa mövzuda "ilişmişdi". Bir həftə keçdi və yenə problem yaradırdılar. Səkkizinci gün onların daxili işlər naziri ilə Candar gölündə görüşdüm. Açılmış süfrə arxasında oturduq və üçüncü araq stəkanına çatanda belə alınmayacaq dedim. O yenə öz fikrində idi və öz mövqeylərini müdafiə edirdi. Dördüncü stəkanda dedim ki, bir həftəyə silahla dolu gəminiz Poti limanına daxil olur və mənim anbarlarıma boşalacaq.*

*Kəsmədi. Yenə öz dediyini deyirdi.*

*Yeddinci stəkana çatanda dedim ki, sabah həmin problemi bizim xeyrimizə həll etməsəniz, daha üç stəkan yenə içəcəm və səhər Qırmızı Körpüdə 500 000 qaçqın qəbul edəcəksən, bilirsən ki, dediyimi edərəm.*

*Kəsdi.*

*İnanmıram buradan nəsə başa düşəsən. Qareci problemini həll etməklə pul qazana bilməyəcəksən. Siz harada pul var həmin işləri başa düşürsünüz."*

Yuxarıda oxuduğunuz bu mətni (statusu) 2004-2006-cı illərdə Gürcüstanın müdafiə naziri olmuş İrakli Okruaşvili aprelin 25-i öz facebook profilində yazıb. Statusu gürcü dilindən ceviri olduğu kimi vermişik, hörmətli oxucu. Məncə, əlavə izaha ehtiyac yoxdur, söhbətin nədən getdiyi aydındır.

Son günlər gündəmdə olan Azərbaycan-Gürcüstan sərhədində yerləşən David Qareci (Keşikçidağ) məbədi ilə bağlı məsələni Okruaşvili Gürcüstanda yaşayan 500 000 azərbaycanlını Gürcüstandan qovmaqla hədələyərək həll etməyi məsləhət görür, Gürcüstanın aborigen sakinləri olan azərbaycanlıları qaçqın adlandırır.

Kobayeviç, xatırlatmaq istəyirəm ki, indi nə 80-ci illərdir, nə 90-cı, nə də 2005-ci ildir və indi Azərbaycan Respublikası da, Gürcüstanda yaşayan azərbaycanlılar da əvvəlki deyil. Beynəlxalq hüququ ki, sən bitirmisən, mən yox və belə şeylərdən başın yaxşı çıxa gərək. Əslində Gürcüstan azərbaycanlıları istəsələr bu araq iyli bəyanata görə beynəlxalq hüquq çərçivəsində addımlar atarlar, amma "it hürər, karvan keçər" deyib bu sərsəmləməni söz yerinə də saymadılar. Əsl qaçqının kim olduğu da bəllidir, doğulduğu torpağı qoyub qaçanın kim olduğu da. Stalin damarın tutanda üzünü Kvemo Kartli tərəfdən Şida Kartli tərəfə də çevir hərdən. Gürcüstanda doğulub, təhsil alıb, vergi ödəyən hər bir azərbaycanlı Gürcüstanın tamhüquqlu vətəndaşıdır. Azərbaycanlılar dədə-baba torpaqları olan Gürcüstanı burada yaşayan başqa millətlərdən çox sevirlər ki, az sevmirlər və Gürcüstanın ərazi bütövlüyünü qorumaq üçün döyüşməyə də hazırdırlar. Belə ki, Gürcüstanda 500 000 qaçqın yox, 500 000 əsgər var, Kobayeviç. Sən bu qədər insanı necə və hansı üsulla Qırmızı Körpüyə qədər qovmaq fikrindəsən? Danışanda bir az da fikirləşmək lazımdır, çaxırdan ayıq başla.

Kim olur olsun – nazir, mer, partiya sədri, biznesmen, həkim, pedaqoq, limon satan, sucux satan, çaxır düzəldən və sair, Gürcüstan azərbaycanlıları haqqında danışanda bir az ehtiyatlı olmalı, ağzından çıxan sözü mədəsindən yox, beynindən keçirməlidir (əlbəttə, beyni varsa), 500 minin heysiyyatı ilə oynamaq zarafat deyil, cənablar. 500 000 azərbaycanlını qaçqın eləmək istəyənlər, əvvəlcə Avropadan sığınacaq istəyən minlərlə "qaçqınlarının" qeydinə qalsınlar, azərbaycanlıların dərdini çəkməsinlər, azərbaycanlılar ulu vətənləri Gürcüstanı heç vaxt darda qoyub qaçan deyillər.

Bu cür populist fikirlər səsləndirib, gündəmi ələ alıb, özləri kimi düşünən minlərlə insanın "like"nı toplayan rasist, şovinist, separatçılar Gürcüstanın inkişafına deyil, tənəzzülünə xidmət edir, təxribat yaradır, millətlər arasına düşmənçilik və nifrət toxumu səpirlər.

Hər dəfə toy toğlusu kimi dınqıltı səsi gələn yerə özünü yetirib siyasi dividend qazanmaq üçün şou yaradan Leyboristlər partiyasının sədri Şalva Nateləşvili də yanına televiziya kanallarının jurnalistlərini alıb David Qareciyə Azərbaycan Respublikasının sərhədçilərinə rus dilində tarix dərsindən mühazirə oxumağa gedib. Cılız tarixi biliyini televiziya vasitəsi ilə ifşa edən Nateləşvili müəllim həm də Gürcüstan torpaqlarının işğalçılarının kimlər olduğunu səhv salıb deyəsən.

Azərbaycanlıları Qafqaza aid etməyən, Gürcüstan azərbaycanlılarını vətəndaş kimi qəbul etməyən, qaçqın adlandıran bu qırışsız beyin sahibləri yaxşı ki, hakimiyyətdə deyillər, olmamalıdırlar, ümid edək ki, olmayacaqlar da.

## SALOME ZURABİŞVİLİ: "GÜRCÜSTAN-AZƏRBAYCAN SƏRHƏDİNİN MÜƏYYƏN EDİLMƏSİ MƏSƏLƏSİNİ TƏXİRƏ SALMAQ OLMAZ"



Prezident Salome Zurabişvili Azərbaycanla sərhəddə yerləşən David Qareci sərhədyanı zonaya baş çəkib. Bu barədə dövlət başçısı administrasiyasının mətbuat xidməti məlumat yayıb.

S.Zurabişvili sərhədçilərlə görüşüb. Görüşdən sonra o bildirib ki, Gürcüstan-Azərbaycan sərhədinin müəyyən edilməsi üzrə məsələni tezliklə həll etmək lazımdır. Prezidentin sözlərinə görə, bu məsələni təxirə salmaq olmaz.

## PREZİDENT ADMİNİSTRASİYASININ RƏHBƏRİ İSTEFA VERİB



Prezident Administrasiyasının rəhbəri Laşa Jvania istefa verib. L.Jvania vəzifəsindən azad olunması ilə bağlı dövlət başçısı Salome Zurabişviliyə mart ayında müraciət edib. O, mayın 1-dən etibarən vəzifəsini tərk edəcək.

Qeyd edək ki, L.Jvania 2018-ci ilin dekabrında Gürcüstan Prezident Administrasiyasının rəhbəri təyin olunub. O, indiyədək Gürcüstan Patriarxlığı Fondunun rəhbəri olub.

## GÜRCÜSTAN VƏTƏNDAŞLARININ XARİCİ ÖLKƏLƏRDƏ QANUNSUZ QALMASINA ŞƏRAİT YARADANLAR HƏBS OLUNACAQLAR

Gürcüstan vətəndaşlarının xarici ölkələrdə qeyri-qanuni qalmasına şərait yaradan şəxslər cinayət məsuliyyətinə cəlb olunacaqlar.

Bu məsələ aprelin 17-si Gürcüstan parlamentinin üçüncü oxunuşda ölkənin Cinayət Məcəlləsinə qəbul etdiyi düzəlişlərdə əksini tapıb.

Qanunverici orqanda qanun layihəsini 78 deputat dəstəkləyib. Sənədin əleyhinə heç bir deputat səs verməyib.

Qəbul olunmuş düzəlişlərə əsasən, Gürcüstan vətəndaşının xarici ölkəyə qanunsuz getməyi və yaxud orada qanunsuz qalmasına şərait yaradan şəxsləri cərimə və ya 2 ildən 4 ilədək azadlıqdan məhrumetmə cəzası gözləyir.

Bu cür hərəkətlərə təkrar olaraq iki və ya daha çox şəxsə qarşı saxta sənədlərin istifadə olunması ilə yol verilərsə, bu zaman 3 ildən 6 ilədək həbs cəzası nəzərdə tutulub.

Mütəşəkkil qruplaşma tərəfindən həyata keçiriləcək bu cür addımlara qarşı isə 4 ildən 7 ilədək azadlıqdan məhrumetmə cəzası tətbiq olunacaq.

Layihədə qeyd olunub ki, yaxın qohumuna xarici ölkədə qanunsuz qalmaq üçün şərait yaradan və ya təşkil edən şəxslər cinayət məsuliyyətinə cəlb olunmayacaqlar.

Qanun dərc olunandan 15 gün sonra qüvvəyə minəcək.

## 2016-2018-Cİ İLLƏRDƏ 323 967 ÇAĞIRIŞÇININ HƏRBİ XİDMƏTƏ GETMƏSİ TƏXİRƏ SALINIB



Üç il ərzində 323 967 çağırışçının vacib hərbi xidmətə getməsi təxirə salınıb. Bu haqda İnfrastruktur Nazirliyi məlumat verib.

Müəssisənin məlumatına görə, 2016-2018-ci illərdə hərbi xidmətin 1 illik təxirə salınması üçün 2419 nəfər 2000 lari ödəyib və ümumilikdə məbləğ 4.8 milyon larini təşkil edib.

Hərbi xidmətə getməmək üçün 2016-cı ildə 731 nəfər, 2017-ci ildə 814 nəfər, ötən il isə 874 nəfər məbləğ ödəməyi seçib.

Məlumata əsasən, 2016-2018-ci illərdə məcburi hərbi xidmət 7286 din xadimi və dini tədris müəssisələrinin şagirdləri üçün təxirə salınıb, 2016-cı ildə 426 din xadimi və dini məktəb şagirdləri, 2017-ci ildə 553 nəfər, ötən il isə rəqəm təqribən 11 dəfə artaraq 6307 nəfər olub. Belə ki, qeyd olunan illərdə 136 152 tələbə hərbi xidmət keçməyib.

Ötən il 109 219 çağırışçının hərbi xidməti təxirə salınıb, onlardan 2136-sının hərbi xidməti 1 ilə qədər təxirə salınmasının səbəbi sağlamlıq vəziyyəti ilə bağlı olub, 24243 nəfər hərbi xidmət üçün yararsız olduğuna görə, 96 nəfər haqqında cinayət işi aparıldığına görə, 46338 nəfər tələbə olduğuna görə, 2574 nəfərin iki və daha çox uşağı olduğuna görə, 22663 nəfər tək övlad olduğuna görə hərbi xidməti təxirə salınıb. 206 nəfərə Gürcüstanın baş naziri hərbi xidmətin təxirə salınması hüququ verib.

Müəssisənin məlumatına görə, 2016-2018-ci illərdə 16879 nəfər vacib hərbi xidmət keçib, çağırışdan isə 9989 nəfər azad olunub. Cari ildə isə çağırış 12 fevraldan başlayıb və 29 iyunda başa çatacaq.

## R.T.ƏRDOĞAN: “QARABAĞDA, SURİYADA, ARAKANDA OLAN QIRĞINLAR SOYQIRIMI DEYİLMİ?”



“Erməni deportasiyası nə soyqırım, nə də böyük fəlakətdir. Bu məsələ, sadəcə, o dönəmdə çox sıxıntılı şəraitdə yaşanmış acı olaydan ibarətdir”.

Bu sözləri Türkiyə prezidenti Rəcəb Tayyib Ərdoğan AKP-nin Ankarada keçirilən 28-ci Məsləhət və Qiymətləndirmə toplantısında səsləndirib.

O bildirib ki, bir əsr öncə Anadolu torpaqlarında ən məsum durumda olanlar elə türk milləti olub: “Balkan savaşları sırasında və sonrasında 2 milyon insanımızı itirdik, Doğu və Güney Anadoluda rus və erməni işğalları nəticəsində daha 2 milyon insanımız qətlə yetirildi. Əgər ermənilərin dediyi kimi, onları soyqırıma məruz qoymuş olsaydıq, Avropadan Amerikaya, Quzey Afrikadan Qafqazlara qədər bir ərazidə milyonlarla erməni yaşamazdı. Deportasiya dönəmin zor şərtlərində atılan bir addım olub”.

Ərdoğan bir daha bu mövzunu siyasilərdən öncə tarixçilərin, elm adamlarının araşdırmasının vacibliyindən danışıb: “Biz illərdir bu çağırışı edirik. Baş nazir olduğum vaxtlardan deyirəm ki, gəlin arxivlərimizi açaq, amma bu yola gəlmirlər. Sənəd-sübut olmadan parlamentlər, siyasilər vasitəsilə beyinləri qarışdırırlar. Əlcəzairdə milyon yarım, Ruandada 800 min insanın ölümünə bais olanlar fransızlardır. Bunların hamısı sənədlə, sübutla əlimizdədir. Fransa prezidentinin öncə bu işləri öyrənməsi lazımdır. Fransada 700 min erməni var deyə, Makron bəy, bu, səni qurtarmayacaq. Avropa yəhudilərindən Əlcəzair və Tunis müsəlmanlarına qədər gerçəkdən soyqırıma məruz qalanları yaxşı bilirik. Afrikanın hər küncündə, Güney Amerikada bir-birinə qırdırılan nə qədər insanlar var. Son yarım əsrdə Qarabağda, İraqda, Fələstində, Suriyada, Bosniyada, Arakanda olan insan qırğınları soyqırımı deyilmi? İnsanların və insanlığın müdafiəsində Türkiyənin başı ucadır və bizim bundan geri addım atmağımız da mümkün deyil”.

## TÜRKİYƏ SƏFİRİ: TRAMPIN 1915-Cİ İL HADİSƏLƏRİ İLƏ BAĞLI BƏYANATI BİRTƏRƏFLİDİR

ABŞ prezidenti Donald Trampın 1915-ci il hadisələri ilə bağlı bəyanatı birtərəflidir. Bunu Türkiyənin Vaşinqtondakı səfiri Serdar Kılıç deyib.



S.Kılıç bildirib ki, erməni quldur dəstələrinin həmin vaxt Osmanlı dövlətinin dinc müsəlman əhalisini qətlə yetirməsi barədə çoxsaylı faktlar var.

Diplomat vurğulayıb ki, buna baxmayaraq Ankara dəfələrlə Yerevanı 1915-ci il hadisələrini araşdırmaq üçün birgə komissiya yaratmağa çağırıb, lakin Ermənistan hələ də buna reaksiya verməyib.

Qeyd edək ki, Aprelin 24-ü Vaşinqtonda yaşayan Türkiyə və Azərbaycan vətəndaşları 1915-ci il hadisələri ilə bağlı etiraz aksiyası keçiriblər.

Aprelin 24-də ABŞ prezidenti Donald Tramp Osmanlı İmperiyasında 1915-ci ildə qeydə alınan hadisələrlə bağlı bəyanatında yenə də “soyqırımı” sözündən istifadə etməyib. O, ənənəvi müraciətində “mets yeqern” (“böyük müsibət”) ifadəsi ilə kifayətlənib.

## ABŞ-IN GÜRCÜSTANDAKI MÜVƏQQƏTİ İŞLƏR VƏKİLİ VƏZİFƏSİNİ TƏRK EDİR



ABŞ-ın Gürcüstandakı müvəqqəti işlər vəkili Ross Uilsonun səlahiyyət müddəti başa çatır. Bu barədə ABŞ-ın Gürcüstandakı səfirliyi məlumat yayıb.

R.Uilson may ayının ortalarında Gürcüstanı tərk edəcək. Onun səlahiyyətlərini Elizabet Rud yerinə yetirəcək.

Qeyd edək ki, R.Uilson ötən ilin noyabrında ABŞ-ın Gürcüstandakı müvəqqəti işlər vəkili təyin olunub. O, 2005-2008-ci illərdə ABŞ-ın Türkiyədəki, 2000-2003-cü illərdə isə Azərbaycandakı səfiri olub.

## GÖRDÜYÜM HƏQİQƏTLƏR



Hacı BƏKİROĞLU
hacibakir@mail.ru

**İnsan Allahın yaratdığı məxluqlar içərisində ən üstün olaraq yaradılmışdır. Bunu uca Allah “Tin” surəsində buyurur. Hətta sonra insanın ən aşağı səviyyəyə düşdüyü də elə bu surədə vurğulanır. “Zariyat” surəsinin 56-cı ayəsində də “Mən insanları və cinləri ancaq mənə ibadət etsinlər deyə yaratdım” buyurulur. Ancaq insanlıq bu gün öz yaradılış qayəsindən uzaqlaşaraq tamam başqa istiqamətə yön alıb.**

İnsanların bir-birinə olan nifrəti, bir-birinin qatili olması elə ilk insanlar sayılan Habillə Qabilin münaqişəsindən başlayır. Elə o zamandan bəri insan qan tökməyə meyillənir. Hər nə qədər Allah bütün ilahi kitablarda bunu qadağan etsə də, insanoğlu qanunları pozmağa hər zaman meyilli olmuşdur.

Tarix boyu müharibələr yoluyla neçə milyon insanların həyatı sonlandırılmış, neçə milyon insanlar müəyyən qüsurlar, xəsarətlər almışdır. Bu qəstən törədilən vəhşiliklər hər nə qədər müasirləşmiş desək də bu zamanda da davam etməkdədir.

Bu gün insan həyatı layihələr əsasında sonlandırılmağa başlanmışdır. Müəyyən texnikaların icadı nəticəsində işsizliyin artması səbəbiylə onlara ehtiyac duyulmadığını düşünən bəzi özlərini yuxarı təbəqə sayan insanlar aşağı gördükləri təbəqəni ortadan qaldırmağa əl atırlar. Həmçinin insan artımının sürətlənməsini də buna səbəb göstərirlər.

İnsanlar və ya ölkələr bir-birinə güc göstərmək xətrinə zəif olanları əzməklə məşğuldurlar. Halbuki Allah Qurani-Kərimdə “...hər kim yer üzündə fitnə-fəsad törətməmiş bir şəxsi öldürsə o, bütün insanları öldürmüş kimi olur...” buyurmuşdur (Maidə, 32). Ancaq bu gün dünyanın müxtəlif yerlərində aclıqdan, xəstəlikdən və ya bombalardan ölən insanlar kimsəni düşündürmür.

Bu gün baş verən müharibələr, tökülən qanlar da dinc əhalinin üzərindən həyata keçirilir. Kimsəyə bir zərəri olmayan, bir tikə çörəyinin dərdində olan insanlar qurban gedirlər. Hansısa vəzifəli şəxs zəhmətkeş insanın haqqını yeyir və bunun da cəzasını o zəhmətkeş insan ödəyir. İraqda çıxan müharibə, Suriyadakı vətəndaş qırğını, Liviyadakı üsyanlar və bunun kimi bir çox hadisələr düşünülmüş bir plan idi və dinc əhalinin qanına başa gəldi. Son günlərdə Yeni Zelandiyanın Kraystçörç şəhərində iki məscidə silahlı hücum nəticəsində 50 nəfər şəhid oldu. Bu açıq-aşkar bir terror aktı idi və müəyyən qurumlar və beynəlxalq təşkilatlar buna susdular. Necə də susmasınlar, axı qurbanlar müsəlmanlar idi. Əgər məsuliyyəti üzərinə götürən özünü müsəlman sayan, ancaq İslamla yaxından-uzaqdan heç bir əlaqəsi olmayan hər hansı bir terror təşkilatı olsaydı, o zaman danışanlar çoxalardı. Buna qarşılıq da Şri–Lankada törədilən terror aktı oldu. Bu faciədə ən azı 253 məsum insan qətl edildi, 500-dən çox məsum insan yaralandı. Bu hadisəni isə yuxarıda da vurğuladığımız kimi İslamla heç bir əlaqəsi olmayan İŞİD deyilən terror təşkilatının adına çıxaraq yenə bəzi maraqlı şəxslər islamafobiya oyununu oynamağa başladı.

Dinindən, irqindən, millətindən asılı olmayaraq hər cür insan qətli və cinayətlər qınanmalı və belə hadisələrin qarşısı alınmalıdır. İslam dini hər zaman barış dini olmuşdur. Adından da bəllidir ki, bu din sevgi dinidir. Əgər bir dinin müqəddəs kitabı “Sizinlə vuruşanlarla siz də Allah yolunda vuruşun, lakin həddən kənara çıxmayın...” (yəni sizinlə vuruşanlarla vuruşun, başqalarına toxunmayın) deyə əmr edirsə, peyğəmbəri isə döyüş əsnasında belə döyüşə qatılmayan qeyri-müsəlman qadınların, uşaqların, yaşlıların, ibadətlə məşğul olan din adamlarının öldürülməməsini, ibadətxanaların yıxılmamasını, ağacların kəsilməməsini və heyvanların öldürülməməsini tapşırırsa, bu dinin mənsubları necə terrorçu olarlar, onu düşünmək lazımdır.

Sülh və barış dolu bir dünyada həyatımızı davam etdirmək ümidi ilə... (Əgər biz insanlar təmiz ürəkli və dürüst olarıqsa, bu da mümkündür.)

# GÜRCÜSTAN DÜNYA UNİVERSİTETLƏRİNİN REYTİNQİNƏ DÜŞÜB



Times Higher Education (THE) dünyanın ən yaxşı universitetlərinin 16-cı reytinqini yayımlayıb. 200-lüyə 86 ölkənin 1250-dən artıq universiteti arasından 25 ölkənin universitetləri düşüb.

Qiymətləndirmə 13 göstərici ilə olub və onu 5 əsas xarakterə qədər endirə bilərik: tədris, araşdırma, tədqiqatın təsiri, industriyanın faydası və beynəlxalq baxış.

Qeyd etmək lazımdır ki, Tbilisi Dövlət Universiteti (TDU) qeyd olunan reytinqə düşüb və 1001+ yeri tutub. Ötən il reytinqə Gürcüstanın heç bir universiteti düşməyib. 2016-2017-cı illərdə "Times" dünyanın 980 ən yaxşı universitetinin siyahısını yayımlayıb. Siyahıda TDU 801+ yerdə idi, ancaq o zaman, müqayisə etsək, araşdırmada az sayda ölkələr iştirak edirdilər.

Nəticədə TDU 2,9 balla qiymətləndirilib. Birinci yerdə olan universitetin eyni göstəricisi isə 67-yə bərabərdir.

Bu ilin nəticələrinin statistikasına əsasən, TDU-da qız və oğlanların bərabərliyi 62:38, beynəlxalq tələbələrin sayı 2%-dir. Universitetin beynəlxalq baxışı 44,6 balla qiymətləndirilib və bu, ən yaxşı nəticədir. Times Higher Education qalan meyarlarda TDU-nu belə qiymətləndirib:

Tədris – 15,2
Araşdırmalar – 9
Tədqiqatların təsiri – 2,9
İndustriya gəlirləri - 34,4

Reytinqin liderləri arasında ən yaxşı universitetlərin sayına görə ABŞ və Böyük Britaniya liderlik edir. Yaponiya və Çin universitetləri qiymətləndirmədə vacib mövqe tutan ölkələr arasındadır, ancaq bu ölkələr siyahıda təqdim olunan universitetlər arasında yenə də Almaniya və Niderlanddan geridə qalırlar. Qeyd edilməlidir ki, lider universitetlərin üçlüyü ötən il olduğu kimidir.

2019-cu ilin ən yaxşı universitetlərinin onluğu isə belədir:

1. Oksford Universiteti
2. Kembric Universiteti
3. Stenford Universiteti
4. Masaçusets Texnologiya Universiteti
5. Kaliforniya Texnologiya Universiteti
6. Harvard Universiteti
7. Prinston Universiteti
8. Yel Universiteti
9. London Kral Kolleci
10. Çikaqo Universiteti

Hazırladı: Mariam Eliaşvili

# AVROPADA MÜƏLLİMİN ƏN AŞAĞI ƏMƏK HAQQI GÜRCÜSTANDAKINDAN 8 DƏFƏ ÇOXDUR

İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının (OECD) monitorinqinə əsasən, ABŞ ibtidai məktəblərində (elementary school) yeni işə başlayan müəllimin orta illik əmək haqqı 39000 dollar, veteran müəllimin illik əmək haqqı isə 67000 dollardır.

OECD müəllimlərin əmək haqqının ən yüksək və ən aşağı olduğu ölkələri araşdırıb.

Yeni başlayan müəllimlərin ən yüksək əmək haqqı Lüksemburqda qeydə alınıb. Bu o deməkdir ki, heç bir təcrübəsi olmayan müəllim ildə 70000 dollar, veteran müəllim isə 124000 dollar alır. Müəllimlərə ən yüksək əmək haqqı Avropa məktəblərində verilir.

- Lüksemburq – 124000 dollar.
- İsveçrə – 86000 dollar.
- Koreya – 85000 dollar.
- Almaniya – 75000 dollar.
- Avstriya – 74000 dollar.

Avropanın ibtidai məktəblərində ən aşağı əmək haqqı Slovakiyada verilir və il ərzində 22000 ABŞ dolları təşkil edir.

2017-2018-ci ilin göstəriciləri ilə Gürcüstanda təcrübəçi müəllimlərin orta illik əmək haqqı əlavələrlə birgə 7356 laridir, yəni 2829 dollar.

Belə nəticə alınır ki, Gürcüstanın təcrübəçi müəllimlərinin orta illik əmək haqqı Avropanın ən aşağı əmək haqqı verilən ölkələri ilə müqayisədə 8 dəfə azdır.

Gürcüstanda müəllimlərin əmək haqqı Lüksemburqda verilən əmək haqqı ilə müqayisədə təqribən 44 dəfə azdır.

Avropanın orta məktəb (high school) müəllilərinin ən yüksək əmək haqqı yenə də Lüksemburqda (138000 ABŞ dolları) verilir. Ən aşağı əmək haqqı isə 20000 ABŞ dollar olmaqla Litvada qeydə alınıb.

Qeyd edək ki, qonşu Türkiyədə orta məktəb müəlliminin illik əmək haqqı 45000 dollardır.

# İCTİMAİ MƏKTƏBLƏRDƏ ÇALIŞAN MÜƏLLİMLƏRİN YALNIZ 23%-NİN TAM ƏLAVƏ ALMAQ ÜÇÜN LAZIMI SAATLARI VAR

"İctimai məktəblərdə 25800-ə qədər müəllim çalışır və onlardan 5869 müəllimin əmək haqlarına ediləcək əlavələri tam almaları üçün lazımı saatları var. Bu, ictimai məktəblərdə çalışan statusu olan müəllimlərin ümumi sayının təqribən 23%-ni təşkil edir". Bu haqda parlamentin təhsil, elm və mədəniyyət komitəsinin üzvü Serqo Ratianinin qanun layihəsində deyilir.



Qanun layihəsində qeyd olunub ki, Təhsil, Elm, Mədəniyyət və İdman Nazirliyinin məlumatına əsasən, 2018-2019-cu tədris ilinin başlanğıcında ölkə miqyasında 26401 statusu olan müəllim işlə təmin olunub.

Sənədə əsasən, baş müəllim statusu olan 25200-ə qədər müəllimdən 5724-ü tam qrafiklə çalışır, bu o deməkdir ki, 320 larilik əlavə məhz bu qədər müəllimə verilir. Aparıcı statusu olan 494 müəllimdən 136-na 700 larilik əlavə, 39 mentor statusu olan müəllimdən isə 9 nəfərinə 1000 larilik əlavə verilir.

# 12-Cİ SİNİF ŞAGİRDLƏRİ ÜÇÜN BU İL DƏRSLƏR MAYIN 20-Sİ BAŞA ÇATACAQ



Təhsil, elm, mədəniyyət və idman naziri 12-ci sinif şagirləri üçün dərsdə sərbəst iştirak etmənin ləğv olunmasını rəsmi olaraq təsdiq edib. Nazirliyin qeyd olunan qərarla bağlı açıqlaması belədir:

"Təhsil, Elm, Mədəniyyət və İdman Nazirliyi tərəfindən "Ümumi təhsil haqqında" qanunda irəli sürülən təşəbbüs əsasında ictimai məktəblərdə attestat imtahanları ləğv olundu. Buna görə 2018-2019-cu tədris ilində 12-ci sinif şagirdləri üçün dərslərdə sərbəst iştirak etmək rejimi artıq qüvvədə olmayacaq və onlar üçün tədris ili 20 may tarixində başa çatacaq.

Bu il yekun sinif şagirdlərinin 30% və daha çox dərs buraxmalarına görə eksternat imtahanlarının qeydiyyat vaxtı 21-22 may, imtahan dövrü olaraq isə 23 maydan 31 maya qədər vaxt müəyyən edilib. Eksternat imtahanları üçün şagirdlərin qeydiyyatı ictimai məktəblər tərəfindən elektron şəkildə həyata keçiriləcək.

Milli Təhsil Planına əsasən, əgər baza/orta pillələrdə şagird tədris ili ərzində konkret fənn üzrə 30%-dən artıq saat buraxıbsa o, yalnız eksternat imtahanı verməsi əsasında qiymətləndirilir.

Sərbəst iştirak etmək təcrübəsi 2012-2013-cü tədris ilindən qüvvəyə minib. Qiymətləndirmə və Milli İmtahanlar Mərkəzi tərəfindən planlaşdırılan qrafiklə məktəb buraxılış imtahanları tədris ili başa çatan kimi başlayırdı. Dərs buraxmanın yüksək həddini aşan şagirdlərin eksternat qaydası ilə qiymətləndirilməsi prosesi həmin vaxta qədər başa çatırdı. Məhz buna görə nazirliyin qərarı ilə 12-ci siniflər üçün hər il dərslərdə sərbəst iştirak etmək rejimi tədris ili bitməmişdən bir ay əvvəl başa çatırdı və bu dövrdə şagirdlər tərəfindən buraxılan dərs saatları artıq toplanmış saya əlavə olunmurdu".

# 2018-2019-CU İLİN QIZIL VƏ GÜMÜŞ MEDALÇILARINA VERİLƏCƏK SERTİFİKATLARIN FORMASI TƏSDİQLƏNİB



2018-2019-cu tədris ilinin qızıl və gümüş medalçısı olan şagirdlərə veriləck sertifikatların forması təhsil,elm,mədəniyyət və idman nazirinin sərəncamı ilə təsdiqlənib.

Ümumtəhsil müəssisələrində 550 000-dən artıq şagird təhsil alır. Hər il isə məktəbi fərqlənmə ilə bitirən şagirdlərə qızıl və gümüş medallar verilir.

Son iki tədris ilinin göstəricilərinə əsasən, təqribən 4 minə yaxın şagird məktəbi medalla bitirib və bu, şagirdlərin 1%-i belə etmir.

*Səhifəni hazırladı: Aynurə ƏLİYEVA*

# RAMAZANIN ASTANASINDA

***Mübarək üç aylar içərisindəyik, mübarək Rəcəb və Şabanı arxada buraxdıq, qarşıdan mübarək Ramazanı-şərif gəlir. Aləmlərin Rəbbinə həmd olsun, bir daha mübarək Ramazan ayının kölgəsini üzərimizə düşürdü. Keçən ilin bu mübarək günlərində aramızda olub bu il aramızda olmayan o qədər insan var ki. Allaha həmd olsun ki, bu il də bizlərə bu mübarək ayları nəsib etdi. Bunu ilahi bir fürsət bilib ən gözəl şəkildə dəyərləndirməliyik.***

Ömür üç qisimdən ibarətdir: keçmiş, indiki və gələcək. Rəcəb ayı keçmişdə qaldı, ondan bir dərs çıxararaq etmədiyimiz, təxirə saldığımız hansı yaxşı əməllər varsa onları Şaban ayında həyata keçirməliyik. Çünki Şaban ayı hazırda yaşadığımız aydır, Ramazan ayını isə görüb-görməməyimiz məchuldur. Ona görə əldə olan zamanı ən gözəl şəkildə dəyərləndirməliyik.

Bu haqda Hz. Əli belə buyurur: “Dünya arxasını çevirib gedir, axirət isə üzümüzə doğru gəlməkdədir. Hər birinin özünə xas (istəyənləri) övladları vardır. Siz axirətin övladları olun, dünya övladlarından olmayın! Bu gün əməl etmək günüdür, hesab yoxdur. Sabah isə hesab vardır, əməl etmək imkanı yoxdur”. (Buxari, Riqaq, 4)

Bəzi Haqq dostları da Hz. Əlinin bu sözlərindən faydalanaraq belə demişlər: “Dünya arxasını çevirib gedir. Axirət isə bizə doğru yönəlib gəlir. Çox təəssüf o kəslərə ki, arxasını çevirib gedənə doğru yönəlir, özünə doğru gələnə isə arxasını çevirib onunla məşğul olmur.”

Bir evdən eyni vaxtda bir qonaq çıxır, digəri də evə daxil olursa ev sahibi gedən qonağı yola salmaqla o qədər məşğul olur ki, gələn qonağa xoş gəldin deməyi ehmal edir. Düşünək gedən getdi, artıq onunla məşğul olmaqdansa gələni xoş qarşılamaq daha məntiqə uyğun olmazmı? Eləcə də keçmiş ömürdən dərs çıxarıb yaşadığımız günü dəyərləndirməliyik.

Əbu Dərda (r.a.) buyurur: “Sizin ən xeyirliniz yoldaşına, gəl ölmədən əvvəl oruc tutaq” deyəninizdir. Sizin ən xeyirsiziniz isə “Gəl ölmədən əvvəl əylənək, yeyib-içək, həyatın ləzzətini alaq” deyəninizdir.

Ramazanı haqqı ilə dəyərləndirə bilmək hər birimizə nəsib olsun inşallah. Elə oruc tutanlar vardır ki, orucları onlara sadəcə aclıq olaraq geri dönməkdədir. Allah bizi elə insan olmaqdan qorusun. Ona görə də oruclarımızı sadəcə mədə ilə tutmamalıyıq. Bütün əzalarımızla tutmalıyıq ki, savabı da əldə edə bilək.

Ramazanın əvvəli rəhmət, ortası məğfirət, sonu Cəhənnəmdən qurtuluş ayıdır. Ramazanı-şərif Qurani-Kərimin endirilməyə başladığı bir aydır, içərisində min aydan daha xeyirli olan Qədr gecəsi mövcuddur. Günahların bağışlandığı, şeytanların zəncirə vurulduğu, səbr ayıdır. Ramazanda Cənnətin qapıları açılar, Cəhənnəmin qapıları bağlanar. Ramazan mələklərin yer üzünə qonaq olduğu müstəsna aydır.

Ramazanla əlaqəli bir neçə hədisi-şərifə nəzər salaq:

“Əgər qullar Ramazan ayının fəzilətini bilsəydilər, bütün ilin Ramazan olmasını istəyərdilər.”

“Kim Ramazan orucunu fərz olduğuna inanaraq və savabını Allahdan istəyərək könül xoşluğu və tam ixlas ilə tutarsa keçmiş kiçik günahları bağışlanar.”

“Hər kim yalan söyləməyi və yalanla əməl etməyi buraxmazsa, o kəsin yeməsini, içməsini buraxmasına Allahın ehtiyacı yoxdur.”

“... Bu ay səbr ayıdır. Səbrin mükafatı isə Cənnətdir. Bu ay bolluq ayıdır. Bu ay mömінin ruzisinin artdığı aydır. Bu ayda kimsə bir orucluya iftar ziyafəti versə günahlarının bağışlanmasına, Cəhənnəmdən azad olunmasına vəsilə olar, iftar ziyafəti verdiyi kimsənin savabı qədər savaba nail olar. Digərinin savabından da bir şey əskilməz.

Səhabələrin “Ya Rəsulallah, bizdən heç kəs orucluya iftar verəcək şeyə malik deyil” buyurmasına Hz. Peyğəmbər “Allah Təala bu savabı bir xurma, bir udum su, bir dadımlıq süd ilə də verər” buyurdu.



Zikr edilən hədisi-şərifləri zehinlərimizdə canlı tutmalıyıq ki, oruclarımız həqiqi oruc ola bilsin, iftar süfrələrimiz də israfdan, riyadan, göstərişdən uzaq əsl iftar süfrələri ola bilsin.

Bu ay comərdlik ayıdır, infaq ayıdır. Bu ayda elə mənəvi abu-havaya bürünməliyik ki, Ramazanı-şərif bitdiyində belə bizim bu halımız bitməsin.

***Allahım, Ramazanı-şərifi haqqı ilə dəyərləndirməyi cümləmizə nəsib et! Haqqı haqq olaraq görməyi, batili də batil olaraq görməyi və ondan uzaq durmağı bizlərə nəsib et! Sevib razı olduğun, Cənnətinlə müjdələdiyin qullarından qərar ver biz aciz qullarını. Amin ...***

Lamiyə Hacıyeva (Eminova)
BGMİ-nin Qadınlar İcmasının sədri

# 23 MİLYON DOĞULMAMIŞ QIZ – GÜRCÜSTAN SELEKTİV ABORTLAR ÜZRƏ DÜNYADA LİDERLƏRDƏN BİRİDİR

Bir saniyədə dünyada təxminən 23 milyon qız uşağı doğulmadan ölür. Səbəb isə valideynlərinin uşağın cinsini bəyənməməsi və normal hamiləliklərini dayandırmağa qərar vermələridir.

BBC Amerikanın Milli Elmlər Akademiyasının jurnalında yayımlanan geniş miqyaslı araşdırmanın nəticələrindən yazır. BBC-nin müxbirinin müqayisəsinə görə, 23 milyon adam – bu, məsələn, İspaniya əhalisinin yarısıdır və ya Avstraliyanın demək olar ki, bütün əhalisidir. Bu, Belçika və ya Kubanın əhalisindən iki dəfə, Danimarka və Finlandiyanın əhalisindən dörd dəfə çoxdur.

Alimlər bütün dünyada son bir neçə onilliklər ərzində doğum göstəricilərini analiz ediblər və aşkarlayıblar ki, bu qədər müddət ərzində bir neçə ölkədə yeni doğulanların cinsi baxımından ciddi dəyişiklik olub: yeni doğulan oğlanların sayı artıb, qızların sayı isə azalıb. Bu tendensiya xüsusi olaraq 11 ölkədə aşkarlanıb, onlardan 3-ü keçmiş Sovet ölkəsi – Gürcüstan, Azərbaycan və Ermənistandır. Dayandırılan hamiləliklərin ən çox hissəsi Hindistan və Çində qeydə alınıb.

**ARZUOLUNMAZ QIZLAR**

BBC-nin məlumatına görə, orta hesabla hər 100 yeni doğulan qıza təqribən 105 oğlan düşür. İldən ilə bu bərabərlik bəzi ölkələrdə dəyişə bilər, ancaq ümumilikdə dəyişməz qalır.

40 il əvvəl yaradılan texnologiya hələ doğulmamış uşağın cinsini müəyyən etmək imkanı verir, bu isə cinsə görə abort təcrübəsinin əsasını qoydu. Gələcək valideynlər üçün uşağı cinsiyyətinə görə saxlayıb-saxlamamağa qərar verməleri üçün imkan yarandı.

Ümumiyyətlə, dünya tendensiyası doğuşun nəzarətinə və azalmasına doğru gedir. Bunu nəzərə alaraq daha çox ailələr uşağın cinsiyyətini bəyənmədikdə hamiləliyi dayandırmağa qərar verir. Mədəniyyətlərin əksəriyyətində isə oğlan uşağının doğulmasına ənənəvi üstünlük verilir.

Məhz bu səbəbə görə bir çox ölkələrdə həkimlərə qanunvericiliklə valideynə doğulmamış uşağın, xüsusən də hamiləliyin ilkin mərhələsində, abort etməyin asan olduğu vaxt cinsiyyəti haqqında məlumat vermək qadağan olunub.

**DAHA ÇOX OĞLAN**

1970-ci ildən 2017-ci ilə qədər iki yüz ölkədə doğuş statistikasını araşdırdıqdan sonra amerikalı və sinqapurlu alimlər bir sıra anomaliyalar aşkar ediblər. Yeni doğulanların cinsinin uyğunsuzluğu ciddi və qeyri-proporsional olaraq dəyişib.

Məsələn, Çində 2005-ci ildə hər 100 yeni doğulmuş qıza 118 oğlan, Hindistanda isə 10 il əvvəl 100 qıza 111 oğlan düşürdü.

Yeni doğulan oğlanların sayının çox olması daha doqquz ölkədə yenə qeydə alınıb: Azərbaycan, Albaniya, Ermənitan, Vyetnam, Tayvan, Tunis, Çernoqoriya və Cənubi Koreya.

Cinsə görə abort dalğasının keçdiyi ilk ölkə Hindistan idi. Qeyri-proporsional olaraq oğlanların çox doğulması burada hələ 1975-ci ildən başlayıb və bu tendensiya bu günə qədər davam edir.

1980-ci illərin başlanğıcında həmin proses Çində, Koreyada, Tayvanda, Tunisdə və Çernoqoriyada başladı. Ancaq bu gün cinsiyyətin bərabərliyi Çindən başqa bütün bu ölkələrdə normal göstəricilərə qayıdıb. Çində 100 qıza 114 oğlan düşür.

Üç keçmiş Sovet respublikasında – Gürcüstan, Ermənistan və Azərbaycanda uşağın cinsinə görə abort partlayışı Sovet dövrü dağıldıqdan sonra – 1990-cı illərdə qeydə alınırdı və ümumilikdə doğuş ciddi şəkildə azalmışdı.

BBC yazır ki, Gürcüstanda bərabərlik qaydasına düşüb. Ancaq Ermənistan və Azərbaycanda cinsə görə selektiv abort yenidən geniş yayılıb. 2017-ci ildə bu ölkələrdə 100 yeni doğulmuş qıza orta hesabla 112-113 oğlan düşürdü.

**Mənbə: Newsreport.ge**

**Gürcü dilindən tərcümə: Aynurə Əliyeva**

## TÜRMƏ EŞQİ, CİNAYƏTKAR OLMAQ ARZUSU



İnsanın formalaşma prosesi doğulduğu ailədə başlayır. Müəyyən yaş həddinə qədər bu funksiyanı ailə daşıyır, ondan sonra məktəblə bölüşür. Şagird gününün üçdə birini məktəbdə olur, qalan üçdə iki hissəsini isə yenə ailənin himayəsində olur. Başlayaq nağıla.

Sirr deyil ki, bizim icma oğlunu fərqli böyüdür (istisnalara toxunan deyiləm). Oğlan uşaqları məktəbdən sonrakı vaxtını müəyyən yaşdan sonra səmərəsiz istifadə etməyə başlayır. Bizdə belədi. "Qoy gözü açıq olsun" metodu. Ötürürük. Nəticəsi də budur ki, müəyyən yaşdan sonra həmin o oğlan uşaqları məktəbə öyrənməyə yox, öyrətməyə gəlirlər – yolda-izdə eşitdiklərini, filan mağazanın qabağında eşitdiyini, filan döngədə danışılanı, filan çayxanada edilən söhbəti. Bizim icmada oğlan uşaqlarının əksəriyyətinin hobbisi dəftər-kitabına "a.u.e", "j.v.s.s." yazmaqdan ibarətdir. Əgər gizli sorğu keçirsək ki, "sizin üçün hörmətli şəxs kimdir a) Müəllim b) Vor zakon", sorğunun statistik nəticəsini bəri başdan anlamaq çətin olmaz. İndi icmamız papağını qabağına qoyub bu azara bir çarə tapmasa qabağına saçını qoyası olacaq.

Gəlin bölgə üzrə məktəblərin divarlarını, tavanını, partalarını, dərsliklərini yoxlayın, görün hansı yazılara rast olacaqsınız: oğru yolu, görmədikləri adamların adları, ulduz, beş barmaq, bıçaq, tapança. Əşşi bununla cəmiyyətmi qurular, bununla dünyayamı çıxmaq olar. 12 yaşında uşaq ulduzun nə olduğunu bilməyə-bilməyə ölənə qədər ulduz şəkli çəkir. Ömründə bircə dəfə başını qaldırıb ulduzun nə olduğu haqqında fikirləşməyibdi, gündəliyi, dəftəri-kitabı ulduzla doludur. Bu yolun onları hara apardığı bəllidir.

Bir icmanın ki, yarısı üçün zindan məktəbdən müqəddəs olsun, vacib olsun, pir yeri olsun, mənzili-niyyəti olsun, o icma hansı azadlıqdan danışır, hansı həyatdan danışır, hansı tərəqqidən danışır?

Bir xalqın ki, yarısı "bandit" olmaq arzusundadır, bir xalqın yarısı ki, azadlıqda ola-ola zindan həyatı yaşayır, bir icmada ki, "bandit" olmaq dəb olsun, o xalq hansı mədəni statusa iddia edir?

Bir valideynə ki, deyirsən, oğlunuz oğru həyatının fanatıdır, cavabında deyirsə "hə bilirəm", deməli o valideyn üçün övladın sabahı maraqlı deyil. Ümumiyyətlə, necə oğul yiyəsi olmaq maraqlı deyil, əsas oğul yiyəsi olmaqdır. Bizim oğul tərbiyəmiz sünnət etməklə, arvad aldırmaqdan o yana keçməyib. Bizim oğullarımızı (istisnalar xaric) küçələr, dayanacaqlar, tin-dalanlar, çayxanalar, qumarxanalar böyüdür. Nəticə də nə nəticə: zindan eşqi, oğru olmaq arzusu.

Həmid SADIX
Kalinin ictimai məktəbinin müəllimi

## QANUNU ÖYRƏN – YALANLARDAN QORUN

Salam, hörmətli oxucular! Bu yazımda iş adamları üçün vacib olan bir mövzu haqqında danışmaq istəyirəm. Bildiyiniz kimi, 2017-ci ildən "Mühasibat, hesabat və audit" haqqında Gürcüstan qanunu qüvvəyə mindi. Gürcüstanda milli azlıq olaraq azərbaycanlıların yaşadığı regionlarda dövlət dilini tam bilməmək səbəbi ilə və ya informasiya azlığından irəli gələrək bəzi iş adamlarının bu haqda məlumatı yoxdur. Yaranan bu şəraitdən bəzi dırnaqarası mühasiblər istifadə edib sizlərə maddi ziyan vurmasın deyə bu haqda bir yazı yazmaq qərarına gəldim. Müvafiq qanuna əsasən, Gürcüstanda olan vergi ödəyiciləri dörd əsas kateqoriyaya bölünür. Birinci üç kateqoriya haqqında danışmayacam, çünki onlar əsasən böyük şirkətlərdir, onlara audit şirkətləri xidmət edir və regionda azlıq təşkil edirlər. Bizim əsas mövzumuz regionda çoxluq təşkil edən və informasiya baxımından qıtlıq çəkən IV kateqoriya şirkətlərə aiddir. Mövzunun daha səmərəli olması üçün sual-cavab şəklində davam edirəm.

1. IV kateqoriya şirkət olduğumu necə təyin edim?

Qanuna əsasən, əgər şirkət aşağıda sadalanan 3 şərtdən ikisini təmin edirsə onda həmin şirkət IV kateqoriyaya aid edilir:

a) Aktivlərin ümumi dəyəri 1 milyona qədərdirsə.

b) Gəlir 2 milyona qədərdirsə.

c) İşçı sayı 10-a qədərdirsə.

2. IV kateqoriya şirkət olaraq maliyyə hesabatını necə təqdim edə bilərəm?

IV kateqoriya şirkətlər maliyyə hesabatını Mühasibat, Hesabat və Audit Nəzarət Xidmətinin hazırladığı sadələşdirilmiş standartlar əsasında hazırlamalıdırlar.

3. IV kateqoriya şirkət maliyyə hesabatını nə zaman hazırlamalı və təqdim etməlidir?



IV kateqoriya şirkət maliyyə hesabatını ildə ən azı bir dəfə hazırlamalıdır və qanuna əsasən, bu məcburiyyət bu ildən qüvvəyə minir, yəni 2018-ci ilin maliyyə hesabatını 2019-cu ilin ən gec 1 oktyabrına qədər hesabat portalına (reportal.ge) təqdim etməlidir.

4. IV kateqoriya şirkətin maliyyə hesabatına audit lazımdırmı?

Xeyr, IV kateqoriya şirkət üçün audit lazım deyil, yəni pulunuzu artıq xərcləməyin, hesabat portalına daxil olaraq sizin üçün ayrılan sadələşdirilmiş standartlarla hazırlaya bilərsiniz, ya da bunu mühasibiniz edə bilər.

Bununla yanaşı bildirmək istəyirəm ki, qeyd olunan qanuna əsasən, qeyri-hökümət təşkilatları üçün maliyyə hesabatının təqdimi və audit hesabatı vacib deyil.

Fərdi sahibkara gəldikdə isə, əgər o, bu qanunla müəyyən olunmuş I, II və III kateqoriya sahibkarlar üçün müəyyən olunmuş şərtləri təmin edirsə, o zaman o, qanunun uyğun normalarına əməl etməlidir.

Əlavə məlumatı "reportal.ge" internet səhifəsinə daxil olaraq ala bilərsiniz.

Elnur Xəmmədov
*Vergilər Audit Departamenti*

## UŞAQLARIN QANINDA ƏN YÜKSƏK QURĞUŞUN GÖSTƏRİCİSİ ACARA REGİONUNDA QEYDƏ ALINIB

2018-ci ildə BMT-nin Uşaq Fondunun (UNISEF) dəstəyilə Gürcüstanda aparılan irimiqyaslı tədqiqatda iştirak edən uşaqların 41 faizinin qanında qurğuşun tərkibinin yüksək olduğu aşkarlanıb. Tədqiqatın nəticələri UNISEF-in saytında dərc olunub.

Hamı üçün vahid rəqəm olmasa da, Ümumdünya Səhiyyə Təşkilatı (ÜST) 100 mkq qanda 5 mkq qurğuşunu norma kimi müəyyən edib.

Gürcüstanda 2 yaşdan 7 yaşa qədər 1578 uşaq tədqiqat obyekti olub, seçim təsadüfi edilib. Nəticələr belədir:

**• Uşaqların 25 faizinin qanında qurğuşun tərkibi 100 mkq qana 5-10 mkq,**

**• 16 faizində isə 10 mkq və ya daha artıq olub.**

Gürcüstanın müxtəlif regionlarında nəticə fərqli olub.

Ən pis nəticələr Acarada qeydə alınıb: tədqiqatdan keçirilən uşaqların 85 faizində 100 mkq qanda 5 mkq və daha artıq qurğuşun aşkarlanıb.

Ən yaxşı nəticələr isə Kvemo Kartliyə aiddir – 100 mkq qana 5 mkq və daha artıq qurğuşun aşkarlanan uşaqlar ümumi tədqiqata cəlb olunan uşaqların cəmi 18 faizini təşkil edib.

Gürcüstanda belə böyük tədqiqat ilk dəfə aparılıb. Tədqiqat UNISEF və doqquz beynəlxalq donor təşkilatının dəstəyi ilə Dövlət Statistika İdarəsi ilə Xəstəliklərə və İctimai Sağlamlığa Nəzarət üzrə Milli Mərkəz tərəfindən təşkil olunub.

Toplanan qan nümunələri Avropada tibbi tədqiqatlar üzrə lider müəssisə sayılan İtaliyanın Milli Səhiyyə İnstitutuna (ISS) göndərilib.

*"Biz Gürcüstan hökumətinin problemə diqqətini və həlli üçün qısa zaman kəsiyində uzunmüddətli həll variantı hazırlamaq niyyətini yüksək dəyərləndiririk. Növbəti addım qanda qurğuşun tərkibinin yüksək olmasının mənbəyini və səbəblərini aydınlaşdırmaq üçün tədqiqat aparılması olacaq",* – UNISEF nümayəndəsi Qotfrid Xann bildirib.

Gürcüstanın Xəstəliklərə Nəzarət Mərkəzinin məlumatına əsasən, problemin həlli üçün artıq bir neçə tədbir görülüb.

Məsələn, 2019-cu il aprelin 19-da hökumətin "qurğuşunun uşaqlara toksik təsirinin erkən müəyyən edilməsi və tənzimlənməsi" haqda qərarı dərc edilib. Artıq uşaqların qanında qurğuşun tərkibinin yüksək olduğunun necə müəyyən edilməsinə və bunun ardınca hansı tədbirlərin görülməsinə dair konkret tövsiyələr təsdiq edilib.

100 mkq qanında 30 mkq qurğuşun olduğu aşkarlanan 16 uşaq və onların ailələri Xəstəliklərə Nəzarət Mərkəzi, İaşvili adına Mərkəzi Uşaq Xəstəxanası və Dövlət Ətraf Mühiti Mühafizə Agentliyinin birgə yaratdığı tibbi qrup tərəfindən xüsusi nəzarət altına götürülüb. Uşaqlar üzərində tədqiqatlar hələ davam edir, daha sonra müalicənin istiqaməti ilə bağlı qərar veriləcək.

Həmçinin bildirilir ki, hökumət kompleksli dövlət proqramı üzərində işləyir. Proqram yüksək qurğuşun tərkibinin olduğu mənbələri müəyyən etmək üzrə tədbirləri və qurğuşunla çirklənmiş ərazilərin neytrallaşdırılması, təcridi və təmizlənməsi üzrə qısamüddətli, ortamüddətli və uzunmüddətli tədbirləri əhatə edəcək.

Tərkibində yüksək səviyyədə qurğuşun olan məhsulların bazara çıxarılmasının qarşısının alınması üzrə tədbirlər və informasiya kampaniyası da proqrama daxil olacaq.

**Uşaqların qanında qurğuşun tərkibi 5 mkq və daha artıq olan bölgələr:**

Acara - 85%
Quriya - 73%
Tbilisi - 30%
İmereti - 61%
Kaxeti - 25%
Mtsxeta-Mtianeti - 20%
Sameqrelo-Zemo Svaneti - 71%
Samtsxe Cavaxeti - 32%
Kvemo Kartli - 18%
Şida Kartli - 21%

**Uşaqların qanında qurğuşun tərkibi 10 mkq və daha artıq olan bölgələr:**

Acara - 50%
Quriya - 44%
Tbilisi - 7%
İmereti - 23%
Kaxeti - 4%
Mtsxeta-Mtianeti - 6%
Sameqrelo-Zemo Svaneti - 29%
Samtsxe Cavaxeti - 12%
Kvemo Kartli - 6%
Şida Kartli - 4%

***Qurğuşunun qanda inkişafı uşağın beyninə ziyan vura bilər ki, bu da intellektin aşağı olması və diqqətin yayınmasına səbəb olur. Orqanizmdə qurğuşunun çox olması anemiya, hipertenziya, böyrək zədələnməsi və reproduktiv orqanlarda problemlər yarada bilər.***

***Hamilənin bədənində yüksək quğuşun tərkibi gözlənilməz aborta, kəskin doğuşa, erkən doğuşa və yeni doğulan uşağın az çəkili olmasına səbəb ola bilər.***

## MARNEULİNİN İCRA BAŞÇISI VƏZİFƏSİ UĞRUNDA 15 NAMİZƏD MÜBARİZƏ APARACAQ



Marneuli rayonunun icra başçısı vəzifəsinə seçkilərdə 15 namizəd iştirak edəcək. Bu barədə Gürcüstanın Mərkəzi Seçki Komissiyasının (MSK) məlumatında bildirilib.

Namizədlərin 14-ü siyasi partiya, 1-i isə təşəbbüs qrupu tərəfindən irəli sürülüb.

Marneuli rayon icra başçısı postuna "Avropalı Gürcüstan" Partiyasından Əhməd İmamquliyev, Vahid Milli Hərəkat Partiyasından Aqil Mustafayev, hakim "Gürcü arzusu" Partiyasından Zaur Dargallı, gənclərdən ibarət təşəbbüs qrupundan Əli Bədirov, "Xalq üçün dövlət hərəkatı"ndan Elene Qabinaşvili, "Xristian Demokrat Hərəkatı"ndan Beka Svanidze, "Azad Gürcüstan" Partiyasından Nino Curxadze, "Sakartvelo" Partiyasından Leyla Xaraişvili, "Azad Gürcüstan uğrunda hərəkat" Partiyasından İrena Sturua, "Yeni Xristian Demokratlar" Partiyasından Lisa Sixarulidze, "Yeni Gürcüstan siyasi platforması"ndan Niniko Çxetia, "Azadlıq – Zviad Qamsaxurdiya yolu" Partiyasından Malxaz Qorqaslidze, "Gürcüstanın veteranlar və vətənpərvərlər siyasi hərəkatı"ndan Eliso Kartvelişvili, Milli Demokrat Partiyasından Cano Jvania, "Xristian Mühafizəkarlar" Partiyasından İlya Pataraya qatılacaq.

Qeyd edək ki, Marneuli rayon rəhbəri vəzifəsinə seçkilər mayın 19-da keçiriləcək.

## MARNEULİNİN 1 SAYLI İCTİMAİ MƏKTƏBİ MÜASİR STANDARTLARA UYĞUN TƏMİR EDİLİR




Marneulinin 1 saylı ictimai məktəbində reabilitasiya işləri aparılır. Təhsil, elm, mədəniyyət və idman nazirinin müavini Natia Zedqinidze, Təhsil İnfrastrukturunun İnkişafı Agentliyinin rəhbəri Zvaid Rostomaşvili, Kvemo Kartli qubernatoru Şota Rexviaşvili, Marneuli bələdiyyəsinin mer vəzifəsini yerinə yetirən Zaur Tabatadze, Marneuli sakrebulosunun sədri Amiran Giorqadze, Marneuli Resurs Mərkəzinin rəhbəri Kənan Omarov və bələdiyyənin başqa rəhbər şəxsləri Marneulidə 1 saylı ictimai məktəbin binasında aparılan bərpa işləri ilə tanış olublar.

Marneulinin 1 saylı ictimai məktəbinin beynəlxalq standartlara uyğun olan binası yeni tədris ilindən istifadəyə veriləcək. Məktəb 350 şagird üçün nəzərdə tutulub və müasir məktəb inventarı və yanğın təhlükəsizlik sistemi ilə təchiz olunacaq. Tədris müəssisəsi xüsusi ehtiyacı olan şagirdlər üçün adaptasiya olunacaq. Layihə çərçivəsində məktəbdə boilogiya laboratoriyaları və idman meydanı qurulacaq.

Marneuli bələdiyyəsinin yaydığı məlumatda bildirilir ki, regionda tədris müəssisələrinin bərpası və şagirdlər üçün tədris mühitinin yaradılması prioritetli istiqamətlərdən biridir. Mərkəzi və yerli hakimiyyətin birgə gücü ilə ildən-ilə əhəmiyyətli şəkildə vəziyyət yaxşılaşır və bu istiqamətdə bir çox vacib və maraqlı layihələr planlaşdırılır.

## DƏMYƏ-GÖRARXI KƏNDİNDƏ DEBET ÇAYININ SAHİL BƏNDLƏRİ İLƏ BAĞLI İŞLƏR APARILIR

Marneulinin Dəmyə-Görarxı kəndində Debet çayının sahil bəndləri işlərinin yekun mərhələsini Marneuli bələdiyyəsinin mer vəzifəsini yerinə yetirən Zaur Tabatadze meriyanın rəhbər şəxsləri ilə birgə nəzərdən keçirib.

Artıq çayın yatağı dəyişdirilib, indiki mərhələdə isə daş bəndlər qurulur ki, çayın həcmi artan zaman suyun qarşısını tutsun.



Qeyd olunan layihə üçün Regional İnkişaf Fondundan 1 511 957 lari ayrılıb.

Marneuli bələdiyyəsinin mer vəzifəsini yerinə yetirən Zaur Tabatadze aparılan işləri müsbət qiymətləndirib və layihənin əhəmiyyətini diqqətə yetirib.

Kənddə çayın həcminin artması nəticəsində yerli əhalinin kənd təsərrüfatı sahələri məhv olurmuş və nəticədə layihənin həyata keçirilməsi ilə bağlı qərar qəbul edilib.

## SADAXLIDA "RƏNGARƏNG GÜRCÜSTAN" LAYİHƏSİNİN TƏDBİRLƏRİ KEÇİRİLİB

Aprelin 22-si Marneulinin Sadaxlı kəndində Gürcüstanın Təhsil, Elm, Mədəniyyət və İdman Nazirliyinin, Kvemo Kartli Dövlət Müvəkkili Administrasiyasının, Marneuli Bələdiyyəsinin, Mədəniyyət Mərkəzinin və Marneuli Resurs Mərkəzinin dəstəyi və Giorgi Leonidze adına Gürcü Ədəbiyyatı Muzeyinin təşəbbüsü ilə "Rəngarəng Gürcüstan" layihəsi çərçivəsində müxtəlif mədəni-maarif tədbirləri keçirilib.

Tədbir çərçivəsində Sadaxlının 1 və 2 saylı məktəblərində "Gürcü rəssamları və Qafqaz", "Nizami Gəncəvi və Şota Rustaveli", "Yazıb-oxumağı yayan cəmiyyət", "Tbilisi Azərbaycan teatrının keçmişi və gələcəyi" mövzularında mühazirələr oxunub.

Sadaxlı Mədəniyyət Mərkəzinin foyesində yerli rəssamların əl işlərindən ibarət sərgi olub, zalda isə gürcü və Azərbaycan dillərində "Leyli və Məcnun" və "Pələng dərisi geymiş pəhləvan" poemaları oxunub. Tədbir konsertlə başa çatıb.



"Rəngarəng Gürcüstan" layihəsinin məqsədi Gürcüstanda yaşayan etnik azlıqların cəmiyyətə inteqrasiyasına dəstək olmaq, gənclərin məlumatlandırılması və yaradıcılıq bacarıqlarının inkişafıdır.

## QARDABANİ BƏLƏDİYYƏSİNİN QAMARCVEBA VƏ KUMİSİ KƏNDLƏRİNDƏ YENİ UŞAQ BAĞÇALARI TİKİLƏCƏK



Qardabani bələdiyyəsinin Qamarcveba və Kumisi kəndlərində yeni uşaq bağçaları tikiləcək. Qeyd olunan layihəni həyata keçirmək üçün Gürcüstanın Bələdiyyə İnkişaf Fondu artıq tender elan edib. Təkliflər mayın 5-dən qəbul olunmağa başlayacaq və 15 mayda başa çatacaq.

Layihənin təxmini dəyəri 3 379 029 larini təşkil edir. Layihəyə əsasən, 2 mərtəbəli, müasir standartlara uyğun binalar tikiləcək. Qamarcveba uşaq bağçası 110, Kumisi uşaq bağçası isə 90 uşaq üçün nəzərdə tutulub.

## DMANİSİ RAYONUNUN İCRA BAŞÇISI KƏND SAKİNLƏRİ İLƏ GÖRÜŞÜB



Dmanisi rayonunun icra başçısı Giorgi Tatuaşvili azərbaycanlıların yığcam yaşadıqları kəndlərin sakinləri ilə görüşüb.

Rayon rəhbəri Aşağı Orozman, Yuxarı Orozman və Mtisdziri kəndlərinin problemləri ilə maraqlanıb.

Görüşün keçirilməsində məqsəd kənd sakinlərini narahat edən problem və qayğıları müəyyən etmək və rayon rəhbərliyinin səlahiyyətləri çərçivəsində onların həllinə dəstək göstərməkdir.

G.Tatuaşvili kənd sakinlərinə rayonda həyata keçirilən sosial proqamlar, cari və planlaşdırılan infrastruktur layihələri barədə məlumat təqdim edib.

Görüşdə Dmanisi rayon icra başçısının müavini Arif Süleymanov, bələdiyyə üzvləri Kamran Xıdırov və Ramiz Ramazanov da iştirak ediblər.

## AĞTƏHLƏ VƏ QARATƏHLƏ UŞAQ BAĞÇALARINDA TƏMİR İŞLƏRİ HƏYATA KEÇİRİLƏCƏK



Qardabani meriyası Ağtəhlə və Qaratəhlə kəndlərindəki uşaq bağçalarında təmir işləri həyata keçirmək üçün tender elan edib.

İşlər binanın yenidənqurulması, həyətin qaydaya salınması və uşaq bağçaları üçün atraksionların montaj edilməsindən ibarətdir. Bunun üçün yerli büdcədən 1 009 196.00 lari ayrılıb.

İşlərin həyata keçirilməsi üçün 17 apreldə tender elan edilib. Təkliflərin qəbul edilməsi 3 mayda başlayacaq və 8 mayda başa çatacaq.

HAQQIN SÖZÜ – SÖZÜN HAQQI 30 APREL 2019-CU İL/ №008 (88)

# Yeni YOL

yeni_yol@mail.ru | İCTİMAİ QƏZET | ყენი იოლი საზოგადოებრივი გაზეთი | qəzet 17 iyun 2015-ci il tarixindən nəşr olunur

## DAVİD QARECİDƏ AÇIQ SƏMA ALTINDA MUZEY YARADILA BİLƏR




Tbilisidə Gürcüstan-Azərbaycan sərhədində yerləşən David Qareci məbəd kompleksinin inkişaf strategiyasına həsr olunmuş beynəlxalq konfrans keçirilib.

Tədbiri Gürcüstanın Mədəni İrsin Qorunması üzrə Milli Agentliyi, "Europa Nostra" mədəni irsin qorunması təşkilatının Gürcüstan nümayəndəliyi və Şota Rustaveli adına Milli Elm Fondu təşkil edib.

Konfransda David Qareci məbəd kompleksində açıq səma altında muzeyin yaradılması konsepsiyası, abidənin bərpası və inkişafı ilə bağlı tövsiyələr müzakirə olunub.

Tədbirin əsas məqsədi məbəd kompleksinin beynəlxalq səviyyədə araşdırılmasına dəstək vermək və mədəni irs abidəsinin üzləşdiyi problemlərin həlli yollarının tapılması, inkişaf strategiyası və fəaliyyət planının nəzərdən keçirilməsidir.

Konfransda Gürcüstanın təhsil, elm, mədəniyyət və idman nazirinin müavini Mixeil Giorqadze, beynəlxalq ekspertlər, "Europa Nostra" təşkilatının nümayəndələri və digər şəxslər iştirak ediblər.

Qeyd edək ki, ötən ilin yanvarında David Qareci məbədi "Europa Nostra" təşkilatının təhlükədə olan abidələr siyahısına daxil edilib. Təşkilatın ekspertləri abidə kompleksinə baş çəkərək tövsiyə və fəaliyyət planı hazırlayıblar.

Məbəd kompleksi YUNESKO-nun Ümumdünya İrs Siyahısına daxil edilib.

"Europa Nostra" təşkilatı mədəni irsin qorunması istiqamətində fəaliyyət göstərən Avropa federasiyasıdır. 42 ölkəni əhatə edən təşkilat 1963-cü ildə Parisdə təsis olunub.

## SÜRÜCÜLƏR SÜRƏT HƏDDİNİ AŞAN ZAMAN "AĞILLI KAMERALAR" VASİTƏSİLƏ SÜRÜCÜLÜK VƏSİQƏSİNDƏN BALLAR AZALACAQ



Yalnız sürət həddini aşdıqları halda "ağıllı kameralar" vasitəsilə sürücülərin sürücülük vəsiqələrindən bal silinəcək.

Daxili İşlər Nazirliyi (DİN) video cərimələrə bal sisteminin qoşulması təşəbbüsü üzərində işləyir. İPN-ə Reformalar və Analiz İdarəsinin rəhbəri Beka Liluaşvilinin verdiyi məlumata görə, sürəti aşmaq sürücülərə pozuntunu başqa faktorların boynuna qoymaq imkanı vermir.

"Bu halda yalnız sürət həddini aşmaqdan söhbət gedir. Mən, məsələn, tez-tez eşidirəm ki, şəhərdə məcburi qaydanı pozmalı olduğun çox infrastruktur var. Sürət aşmağa ona görə aksent edirik ki, bu heç nəyin bəraət qazandıra bilməyəcəyi bir pozuntudur. Səni buna yalnız şəxsi anlayış məcbur edə bilər", - B.Liluaşvili bildirib.

DİN-in Reformalar və Analiz İdarəsinin rəhbərinin açıqlamasına görə, video cərimələrə bal sisteminin qoşulması prosesinin davam etdirilməsinə, sürət həddini aşmaqla bağlı sanksiyaların ciddiləşdirilməsinin nə dərəcədə effektli olmasının qiymətləndirilməsindən sonra qərar verilib.

## GÜRCÜSTAN VƏTƏNDAŞLARININ PROBLEMSİZ DAXİL OLDUĞU 3 ŞENGEN ÖLKƏSİ – MART AYININ STATİSTİKASI




Ötən ay Gürcüstan vətəndaşları Şengen zonası ölkələrindən ən çox Almaniyaya səfər ediblər. Bu haqda Daxili İşlər Nazirliyinin 2019-cu ilin mart ayına olan statistikasında qeyd olunub.

Mart ayında Almaniyaya 6056 nəfər Gürcüstan vətəndaşı səfər edib. Yunanıstana 3730 nəfər, Polşaya 3185 nəfər səfər edib.

Mart ayında Gürcüstandan ən az səfər olunan ölkələr Rumıniya (10 nəfər), Bolqarıstan (102 nəfər) və Belçika (168 nəfər) olub.

Statistika 16 ölkəni əhatə edir və bunlardan yalnız üç ölkədə rədd cavabı olmadan sərhədi keçməyə icazə verilir. Həmin ölkələr Rumıniya (10 səyahət), Litva (501 səyahət) və Niderlanddır (331 səyahət).

Şengen zonası olan ölkələrə daxil olmaqla bağlı rədd cavabı göstəriciləri ümumilikdə 13 ölkədə olub. Ən çox Gürcüstan vətəndaşları Avstriyaya buraxılmayıb (105 rədd cavabı). Sonra 39 rədd cavabı ilə Kipr, 3-cü yerdə isə 37 rədd cavabı ilə İspaniya gəlir.

## MƏTBUAT AZADLIĞINA GÖRƏ GÜRCÜSTAN 60-CI YERDƏDİR




"Sərhədsiz Reportyorlar" (Reporters Without Borders) təşkilatı söz azadlığı ilə bağlı 2019-cu ilin göstəricilərini yayımlayıb. Göstəricilərə əsasən, Gürcüstan mətbuat azadlığına görə 180 ölkə arasında 60-cı yeri tutur. Ötən illə müqayisədə Gürcüstan mövqeyini 1 pillə yaxşılaşdırıb.

Təşkilatın qiymətləndirməsinə görə, Gürcüstanda media mühitin plüralist olmasına baxmayaraq yenə də qütbləşmişdir.

Mətbuat azadlığı indeksi ilə Ermənistan Gürcüstandan 1 bal geri qalaraq 61-ci yeri tutur. Azərbaycan 166-cı, Türkiyə 157-ci, Rusiya isə 149-cu yeri tutur. İlk beşlikdə Norveç, Finlandiya, İsveçrə, Hollandiya və Danimarka yer alır.

Mətbuat azadlığına görə Gürcüstan 2013-cü ildə 180 ölkə arasında 100-cü yerdə idi, 2014-cü ildə 84-cü, 2015-ci ildə 69-cu, 2016 və 2017-ci illərdə 64-cü, 2018-ci ildə isə 61-ci yeri tutub.

## ÖTƏN AY GÜRCÜSTAN VƏTƏNDAŞLARI ƏN ÇOX QONŞU ÖLKƏLƏRƏ SƏFƏR EDİB



Mart ayında Azərbaycana 62791 nəfər Gürcüstan vətəndaşı səfər edib. Bu barədə Gürcüstan Daxili İşlər Nazirliyinin aylıq statistik məlumatında bildirilib.

Fevral ayı ilə müqayisədə Azərbaycana səfər edən Gürcüstan vətəndaşlarının sayı 10038 nəfər və ya 19% artıb. Azərbaycan mart ayında Gürcüstan vətəndaşlarının Türkiyədən sonra ən çox səfər etdiyi ikinci ölkə olub.

Ötən ay Türkiyəyə səfər edən Gürcüstan vətəndaşlarının sayı 146843 nəfər təşkil edib ki, onların da 20 nəfərinə ölkəyə daxil olmağa qadağa qoyulub.

Gürcüstan vətəndaşlarının mart ayında ən çox səfər etdikləri üçüncü ölkə Ermənistan olub. Ötən ay bu ölkəni 26377 nəfər Gürcüstan vətəndaşı ziyarət edib.

## SOĞAN REKORD DƏRƏCƏDƏ BAHALAŞIB



Aprel ayında Gürcüstanda soğanın qiyməti 36% artıb. Bu haqda "East Fruit"in bazar müzakirəsində qeyd olunub. Ekspertlərin qiymətləndirməsinə görə, soğanın dəyəri region ölkələrinin əksəriyyətində rekord dərəcədə bahalaşıb.

Soğanın bahalaşmasında lider ölkə Ukraynadır. Ukraynada məhsulun qiyməti 30% artıb və 1 kq soğan 82 sent olub. Daha sonra Polşa gəlir, bu ay soğan Polşada 10% bahalaşıb, 1 kq məhsulun qiyməti 70 sent təşkil edib. Soğanın idxalının hər iki ölkədə artmasına baxmayaraq, keyfiyyətli ərzaq azalıb və qiymət bahalaşıb.

Gürcüstanda soğanın qiyməti ötən həftələrdə 16% bahalaşıb və 1 kq məhsulun qiyməti 56 sent olub.

Təsisçi:
"Gürcüstan Gənclərinə Yardım və Maarifləndirmə Təşkilatı"

Redaktor: Azər Musaoğlu
Yayım Direktoru: Hacı Bakiroğlu
Qrafik dizayn: Elsevər Əhmədov

ÜNVAN: Qardabani şəh. Kolxoz küç, 4
TEL: (+995) 555 96 18 68
599 54 12 92
EMAİL: yeni_yol@mail.ru

Redaksiyaya gələn əlyazmalar geri qaytarılmır və onlara rəy verilmir. Müəlliflə redaksiyanın mövqeyi müxtəlif ola bilər. Qəzet həlalık ictimai əsaslarla yayımlanır və pulsuz paylanır. Qəzetdə müxtəlif informasiya agentliklərinin xəbərlərindən də istifadə olunur.